# Şəhid olsam, arxamca ağlamazsınız



XTQ kəşfiyyatçı Yalçın Elçin oğlu Rəhimov
Fizuli, Cəbrayıl, Xocavənd r-nu Hadrut qəsəbəsi, Zəngilan, Qubadlı Laçın və sonu Şuşa uğrunda 07.11.2020-ci ildə şəhid olmuşdur.

Yalçin Rəhimovun keçdiyi həyat yolu qısa, lakin vətənin tarixinə şanlı səhifələr yazmış, gələcək nəsillərə örnək olacaq bir yoldur. Bu yola nəzər saldıqca, iyirmi illik bir məcraya sığışdırıla bilməyəcək dərəcədə kükrəyib daşan bir dağ çayının axarına düşürük. Əziz oxucum, gəl, bu çayın "Vətən" nəğməsini birgə dinləyək.

XTQ-ın kəşfiyyatçısı Yalçın Elçin oğlu Rəhimov 2000- ci il, iyul ayının 25-də Ağsu rayonunun Çaparlı kəndində anadan olmuşdur. İbtidai təhsilini İkram Rüstəmov adına orta məktəbdə başlasa da, ailənin maddi sıxıntıları atası Elçin Rəhimovu ailəsini də götürüb çörək pulu dalınca Bakıya gəlməyə məcbur edir. Yalçının özündən böyük bir qardaşı və bir bacısı da vardır. Bakının Maştağa qəsəbəsində məskunlaşan ailənin başçısı şəxsi evlərin tikintisində bənna kimi işləyərək ailəsinin gündəlik tələbatına cavab verməyə çalışırdı. Bu zaman Yalçın yaşadıqları əraziyə yaxın məsafədə olduğundan Nardaran qəsəbəsindəki 295 saylı məktəbdə təhsilini davam etdirməyə başlayır. Məktəbdə nümunəvi şagird olan Yalçın ailəsinin də qayğısına qalırdı. Bacardığı sahələrdə işləyir, ailənin maddi durumunu yaxşılaşdırmaqda çalışırdı. Bununla bərabər, çox həvəs gösrərdiyi sahə, idmanla da məşğul olurdu. O, Maştağa Olimpiya Kompleksində kikboksinq və güləş, Bakıxanov qəsəbəsində isə üzgüçülüklə məşğul olmuşdur. Daha çox kikboksinqə həvəs göstərən Yalçın müxtəlif dərəcəli yarışlara qatılaraq Fəxri Fərman, diplom və medallara layıq görülmüşdür. Çox vaxt I yer tutan Yalçın Rəhimov bu sahədə narıncı kəmərə də sahib olmuşdur.

2011-ci ildə orta məktəbin IX sinfini bitirir və həqiqi hərbi xidmətə gedənə qədər quşçuluq fermasında fəhlə kimi işləyir. 2018-ci ilin oktyabr ayında həqiqi hərbi xidmətə çağırılan Yalçın Rəhimov Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissədə qulluğa başlyır. Əsgəri xidmətdə olarkən də idman yarışlarında iştirak edirdi. 2020-ci il, 19-22 may tarixdə 404 saylı hərbi hissədə keçirilən "Atletika və gimnastika üzrə uzunluğuna tullanma yarışları"nda iştirak edərək I yeri tutmuşdur. Kikboksinq üzrə çempion olmuşdur. Qazandığı kubok xatirə olaraq xidmət yerində saxlanılmışdır. 2020-ci ilin mart ayında xidmətini başa vurur və bir həftəlik evə qayıdır. Uşaqlıqdan hərbiçi olmağı arzulayan Elçin Rəhimov dövlətə vətəndaşlıq borcunu şərəflə yerinə yetirdikdən sonra xidmətini Azərbaycan Respublikasının Xüsusi Təyinatlı Qüvvələrində kəşfiyyatçı kimi davam etdirir. Ancaq bu barədə ailəsinə heç nə deməyir. Yalcın Rəhimov XTQ-də xidməti dovrundə bir cox kurslarda və təlimlərdə iştirak edib, dəfələrlə Fəxri Fərmanlara, sertifaktlara layiq gorulub. Cəsur, fədakhar, cəldliyi, cevikliyi ilə secilən bir hərbci olan Yalçın altı aylıq təşkil olunmuş hərbi təlimlərdə xüsusi dözümlülük və cəsarət göstərərək Qirmizı Beret sertifekatını almışdır.

Azərbaycan Respublikasının ən qüclü qoşun növü sayılan bu quruma qəbul olunmaq özü bir qəhrəmanlıqdır. Qazancı ilə Maştağada özünə ev də tikdirmişdi. Artıq iki ildən bəri nişanlı olduğu bibisi qızı iyirdi. Lakin onun daha vacib saydığı amalı var idi: Vətən torpağını azad görmək. Həyatının az qala, hər anını fotolara, videolara köçürməyi xoşlayan Yalçın keçən il, 2020-ci il, iyulun 25-də hərbi xidmətdə olarkən əskər yoldaşları ilə qaldıqları otaqda ad gününü qeyd edirlər. Həmin anları kameranın yaddaşına həkk edirlər. Dostlarından biri ona həyatda bütün arzularına çatmağı arzulayır. Digəri isə:"Onun bir arzusu var, o da işğal olunmuş torpaqlarımızın geri qaytarılması"- deyir. II Qarabağ müharibəsi başlanan gündən məhz bu amal uğrunda polkovnik Tehran Mənsimovun başçılıq etdiyi qrupun tərkibində döyüş meydanına atılır.

Onu da qeyd edim ki, Yalçının 1995-ci il təvəllüdlü qardaşı Rəhimov Rasim Elçin oğlu 2020-ci il, sentyabr ayının 28-də könüllü olaraq döyüş meydanına yollanır. Suqovuşan uğrunda gedən döyüşlərdə yaralanır. Dörd uşaq atası olan Rasim aldığı zərbədən eşitmə qabiliyyətini itirmiş, bir gözünün görmə qabiliyyəti zəifləmişdir. Bu gün heç bir yerdə işləməyən qazi Rasim Rəhimov ailə hesabından müalicəsini davam etdirir. Yalcın Rəhimov Xususi Təyinatlı Quvvələrin tərkibində ən qızgın doyuslərdə istirak edib, dusmənin bir necə zabit və hərbi qulluqcusunu, eyni zamanda zirehli texnikasını səxsən məhv etmişdir. O, Füzuli, Cəbrayıl, Xocavənd payonunun Hadrut qəsəbəsi, Zəngilan, Qubadlı və Laçının azad olunması uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşub. Qarabag muharibəsinin ən həlledici noqtəsi Susa ugrunda gedən siddətli doyuslər idi. Uzun müddət işğal altında olan bu bölgədə düşmən silah-sursatı ilə artıq çoxdan möhkəmlənmişdi. Sıldırım qayalardan dırmanaraq şəhərə yetişən Azərbaycan əsgərinin əli yalın idi. Lakin Vətən eşqi, qız-gəlinlərin təəssübkeşliyi ona elə bir qüvvə vermişdi ki, necə deyərlər, gözü ayağının altını görməyirdi. Əlbəyaxa döyüşlərdə Yalcın ozu yaralansa da, yaralı cəbhə yoldaslarını doyus meydanından cıxarıb, olumun gozunə dik baxaraq yenidən geri donərkən muhasirəyə dusur. Dusmənə təkbasına meydan oxuyan igid doyuscu onun cox sayda canlı quvvəsini məhv edir. Yalçın Rəhimov erməni quldurlarına qarsı təkbətək vurusarkən boyun nahiyəsindən bıcaq yarası alır. 330 nəfərlik heyətdən yalnız 28-i sağ çıxan (qalanların əksəriyyəti qazi olmuş) şanlı qrupun inadkar döyüşçüsü, hələ müharibə başlamamış, 2020-ci il, avqustun 7-də instaqram səhifəsində şəhidlər barəsində ürək parçalayan video paylaşan Yalçın qələbəyə bir gun qalmıs, noyabrın 7-də şəhadətə qovuşur. Azərbaycan Respublikası XTQ-ın kəşfiyyatçısı Rəhimov Yalçın Elçin oğlu "Vətən Uğrunda", "İgidliyə Görə", "Füzulinin Alınması", "Xocavəndin Alınması"na görə, "Şuşa Uğrunda" və "Vətən Müharibəsi İştirakçısı" medalları ilə təltif edilmişdir.

Müharibə bitdikdən sonra Yalçının əskərlik və döyüş dostu olmuş Musayev Sirus Firuz oğlu Yalçının ailəsi ilə əlaqə saxlayıb, onlara çatacaq bir əmanətin olduğunu bildirir. Bu hər bir Xüsusi Təyinatlıya verilən, Yalçına məxsus fanaktura idi. Fanaktura - bir üzünə hərbi geyimlərin materialından çəkilmiş, bərabər ölçülü ciblərə bölünərək tikilmiş, hər bir cibdə döyüşçü üçün zəruri olan gigenik vasitələr, alt paltarları və digər əşyalar yerləşdirilmiş ləvazimatdır. Fanakturanı gətirən Sirus Musayev deyir ki, hələ Fizulidə olarkən sonuncu dəfə dişlərini fırçaladı və örtüb orada gizlədi ki, qayıdarkən götürərik. Fanaktura gizlədildiyi yerdə qoyduğu kimi qalmışdı. Təkcə ciblərdən birində olan güzgü sınmışdı. Oradakı diş fırçasının ətrini dönə-dönə ciyərlərinə çəkən bacısı Nuridə Şeydayeva söyləyir ki, bundan hələ də qardaşımın diş məcununun qoxusu gəlir. Bir də döyüş yoldaşlarına demişdi ki, əgər mən şəhid olsam, anamla, atamla görüşsəniz, onlara deyərsiniz ki, arxamca ağlamasınlar.

Yalçının özü üçün tikdiyi ev indi onun xatirə muzeyidir. Cəsur döyüşçüyə məxsus şəxsi əşyalardan tutmuş çox səliqə ilə davranmış olduğu mülki və hərbi geyimləri, foto və video materialları burada sərgilənir. Aşağıdakı darısqallığa baxmayaraq, ailədən heç kəs Yalçının üst mərtəbədəki səliqə-sahmanını pozub orada yaşamağa ürək etmir.

Şəhadətindən sonra Maştağa Olimpiya Kompleksində məşq etdiyi idman zalına XT Yalçın Elçin oğlu Rəhimovun adı verilib. Müyyən illərdə təhsil aldığı 295 saylı orta məktəbin dərs otaqlarından birində qəhrəmanımızın xatirəsi əbədiləşdirilmişdir. Evinin yaxınlığında Yalçın Rəhimovun adına bulaq kompleksi inşa edilmiş, xatirə lövhəsi bərkidilmişdir. Burada Maştağa və Nardaran qəsəbələrindən şəhid olmuş igidlərin şəkilləri də yad edilmişdir. İndi Rəhimovlar ailəsinin bir arzusu var ki, o da evinin yerləşdiyi Maştağa qəsəbəsindəki hazırda adsız küçəyə Şəhid Yalçın Elçin oğlu Rəhimovun adının verilməsidir.

Ruhun qarsısında bas əyirik, Qəhrəman Yalcın! Səninlə fəxr edirik. Məkanın cənnət, ruhun şad olsun.

*Zəkiyyə* Babayeva-Əbilova ,
***AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş elmi işçisi, fəl. e.d., dosent.***